“ARAN KREDİT İTTİFAQI” MMC ilə 05 mart 2026-cı il tarixdə bağlanmış 005/26 №-li müqaviləyə əsasən

TƏHVİL QƏBUL AKTI

Bakı şəhəri 08 aprel 2026-cı il

Biz, aşağıda imza edənlər: İcraçı-Sərbəst auditor G.İ.Yusifova və Sifarişçi “**ARAN KREDİT İTTİFAQI” MMC** İdarə Heyətinin sədri C.S.Süleymanovun şəxsində bu Aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən 05 mart 2026-cı il tarixli 005/26 №-li Müqavilədə nəzərdə tutulmuş işlər, yəni Sifarişçinin maliyyə hesabatları standartlarının tələblərinə uyğun tərtib edilmiş 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixə qədər olan dövr üzrə maliyyə hesabtlarının əhəmiyyətlilik baxımından dürüstlüyü barədə rəy bildirmək məqsədi ilə Azərbaycan Respublikasında tətbiq olunan Beynəlxalq Audit Standartlarına müvafiq audit tam həcmdə yerinə yetirilmişdir.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik:

İcraçı:
Sərbəst auditor
Gülnarə İ.Yusifova

Sifarişçi:
“ARAN KREDİT İTTİFAQI” MMC-nin
İdarə Heyənin sədri Cəlil S.Süleymanov

Azərbaycan Respublikası «ARAN KREDİT İTTİFAQI» Məhdud Məsuliyyətli Cəmiyyəti Limited Liability Company Republic of Azerbaijan

Məktub-öhdəlik

"ARAN İTTİFAQI" Məsuliyyətli rəhbərliyinə

KREDİT Məhdud Cəmiyyətin

Siz məndən 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixədək olan dövrdə təqdim olunmuş maliyyə hesabatlarının auditini keçirməyi xahiş etmisiniz. Hazırkı məktub əsasında auditin keçirilməsinə razılıq verdiyimizi və həmin tapşırığı qəbul etdiyimizi bildiririk. Audit maliyyə hesabatlarına dair rəyin bildirilməsi məqsədilə aparılacaqdır.

Audit prosesi beynəlxalq audit standartlarına müvafiq aparılacaqdır. Nəzərdə tutulan standartlar etik normalara riayət etməklə audit prosesinin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərin olub-olmadığını müəyyən etmək üçün əsaslı təminat əldə etmək məqsədilə planlaşdırılmasını və icrasını tələb edir. Bizim audit işimiz test əsasında yoxlamadan, hesabları və maliyyə hesabatlarını təmin edən sübutların əldə edilməsindən ibarət olacaqdır. Seçilmiş prosedurlar maliyyə hesabatlarında faktın fırıldaqçılıq və ya səhv olması ilə əlaqədar əhəmiyyətli səhvin olması riskinin qiymətləndirilməsi daxil olmaqla, auditorun mühakiməsindən asılıdır. Eyni zamanda, auditə rəhbərlik tərəfindən istifadə edilən uçot qaydalarının, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının qiymətləndirilməsi daxildir.

Müəyyən mühasibat və daxili nəzarət sisteminin məhdudiyyətləri ilə birlikdə auditin test mahiyyəti və bir sıra digər daxili məhdudiyyətlərinin olması ilə əlaqədar əhəmiyyətli səhvlərin aşkar edilməməsi üzrə labüd risk mövcuddur.

Riskin qiymətləndirilməsi zamanı müəssisənin daxili nəzarətinin səmərəliliyinə dair rəyimizi bildirmək üçün deyil, müəyyən vəziyyətdə müvafiq hesab edilən audit prosedurlarının planlaşdırılması üçün biz müəssisənin maliyyə hesabatlarının hazırlığına uyğun daxili nəzarət formasını nəzərə alırıq. Bununla belə, maliyyə hesabatları üzərində daxili nəzarətin planlaşdırılması və tətbiqində maliyyə hesabatlarının auditi zamanı diqqətimizi cəlb edəcək hər hansı nöqsanlar barədə sizi ayrıca məktubla təmin edəcəyik.

Nəzərinizə çatdırırıq ki, maliyyə hesabatlarının beynəlxalq standartlarına müvafiq müəssisənin maliyyə mövqeyi, maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkətinə dair maliyyə hesabatlarının hazırlanmasına dair cavabdehlik müəssisə rəhbərliyinin üzərinə düşür. Bizim auditor hesabatı rəhbərliyin maliyyə hesabatlarını tətbiq olunan maliyyə hesabatlarının prinsiplərinə müvafiq hazırlanması və təqdim edilməsi üzrə cavabdehlik daşımasını aydınlaşdıracaqdır və rəhbərliyin öhdəlikləri aşağıdakılardır:

- Fırıldaqçılıq və təhrif ilə əlaqədar səhvlərdən uzaq maliyyə hesabatlarının hazırlanmasına müvafiq daxili nəzarətin planlaşdırılması, yerinə yetirilməsi və qorunub saxlanması.
- Müvafiq uçot siyasətlərinin seçilməsi və tətbiqi.

- Müəyyən hallarda münasib hesab edilən mühasibat qiymətləndirməsinin aparılması.

Audit prosesinin bir hissəsi olaraq biz rəhbərlikdən auditlə bağlı edilmiş təqdimata dair yazılı razılıq tələb edəcəyik.

Sizin işçi heyətinizlə əməkdaşlıq etməyə hazırıq və onların auditlə bağlı lazım olan bütün hesabatları, sənədləşmələri və sair məlumatı təqdim edəcəklərinə inanırıq.

Ödəniş haqqı və formasına dair məlumat müqavilə əsasında müəyyənləşdiriləcəkdir.

Maliyyə hesabatlarının auditinin təşkilinin sizin razılığınıza müvafiq olmasını təsdiq etmək üçün verilən məktuba əlavə edilən nüsxəni imzalamağınızı və geri qaytarmağınızı xahiş edirik.

Sərbəst auditor: **Gülnarə İ.Yusifova**

"ARAN KREDİT İTTİFAQI" Məhdud Məsuliyyətli Cəmiyyətin adından təsdiq edilmişdir:

İdarə Heyətinin Sədri: **Cəlil S.Süleymanov**

05 mart 2026-cı il

THE CHAMBER OF AUDITORS OF AZERBAIJAN REPUBLIC
Independent auditor
Gulnara İsfandiyar Yusifova

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI
Sərbəst auditor
Yusifova Gülnarə İsfəndiyar qızı

Audit xidməti göstərilməsi barədə
MÜQAVİLƏ № 005/26

Bakı şəhəri 05 mart 2026-cı il

Qanunvericiliyə və nizamnaməsinə uyğun fəaliyyət göstərən **"ARAN Kredit İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyət** (bundan sonra "Sifarişçi" adlandırılacaq) İdarə Heyətinin Sədri Süleymanov Cəlil Salman oğlunun şəxsində bir tərəfdən və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası ərazisində auditor fəaliyyətini həyata keçirməyə icazə verən 09 yanvar 2018-ci il tarixdə qeydiyyata alınmış SA/376 qeydiyyat saylı icazə əsasında fəaliyyət göstərən **Sərbəst auditor Yusifova Gülnarə İsfəndiyar qızı** (bundan sonra "İcraçı" adlandırılacaq) digər tərəfdən auditor xidməti göstərilməsi barədə bu müqaviləni aşağıdakı məzmunda bağladıq:

Maddə 1. Müqavilənin məzmunu

1.1 İcraçı Sifarişçinin 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixədək olan dövr üzrə maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına uyğun auditinin aparılmasıdır;

1.2. Auditin nəticəsi Azərbaycan Respublikasında audit fəaliyyətini tənzimləyən normativ aktlara və Azərbaycan Respublikasında tətbiq olunan Beynəlxalq Audit Standartlarına tələblərinə müvafiq tərtib edilmiş auditor rəyindən ibarət olacaq.

Maddə 2. İşlərin yerinə yetirilməsi qaydası

2.1. Müqavilənin 1.1-ci bəndində nəzərdə tutulmuş audit Azərbaycan Respublikasında audit fəaliyyətini tənzimləyən qüvvədə olan qanunvericiliyin tələblərinə müvafiq aparılır.

Maddə 3. Tərəflərin hüquq və vəzifələri

3.1. *Sifarişçi öhdəsinə götürür*:

3.1.1. Müqavilənin 1.1-ci bəndində göstərilmiş auditin başlanmasına kimi hesabat ilinin sonuna balans maddələrinin inventarizasiyasının aparılması, bank idarələri və vergi təşkilatları ilə qarşılıqlı hesablaşmalar üzrə üzləşmələrin edilməsi daxil olmaqla illik mühasibat hesabatının tərtib edilməsi işlərinə hazırlıq üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş bütün tələbləri yerinə yetirmək və bu haqda İcraçıya bu müqavilənin 13-cü maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə bildiriş göndərməyi;

3.1.2. Auditin aparılması üçün lazım olan bütün sənədləşmələri, o cümlədən təsis və qeydiyyat sənədlərini, rəhbər orqanların müşavirələrinin protokollarını, planları, smetaları və auditin aparılması üçün zəruri olan digər məlumatları İcraçının mütəxəssislərinə təqdim etməyi;

3.1.3. İcraçının mütəxəssislərinin sorğularına əsasən Sifarişçinin rəhbərliyi ilə razılaşdırılmış qaydada, onun əməkdaşlarından yoxlamanın suallarına şifahi və yazılı izahatların tam və vaxtında verilməsini təmin etməyi;

3.1.4. İcraçının mütəxəssislərinin bu müqavilənin icrası ilə bağlı zəruri olan auditor hərəkətlərinin və prosedurlarının yerinə yetirilməsinə şərait yaratmaq, auditin aparılması ilə araşdırılan məsələlərin məhdudlaşdırılmasına yol verməməyi;

3.1.5. İşlərin aparılması, sənədlərin saxlanması üçün sahə ayrılması daxil olmaqla Auditin vaxtında və keyfiyyətli aparılması üçün, İcraçının mütəxəssislərinə lazımı şərait yaratmaq, həmçinin Audit aparmaqla əlaqəli İcraçının əməkdaşları ezamiyyətdə olduqda, onları normal məişət şəraiti ilə təmin etməyi;

3.1.6. İcraçının təqdim etdiyi hesab-fakturanı tam həcmdə və vaxtı-vaxtında ödəməyi;

3.2. *Sifarişçinin ixtiyarı vardır:*

3.2.1. İcraçıdan auditin aparılmasına aid qanunvericilik tələbləri haqda, həmçinin İcraçının irad və nəticələrinin əsaslandığı normativ aktlar haqda məlumat almağa

3.3. *İcraçı öhdəsinə götürür*:

3.3.1. Sifarişçinin təqdim etdiyi sənədlər və məlumatlar əsasında Azərbaycan Respublikasının qüvvədə olan

qanunlarını əldə rəhbər tutaraq və Azərbaycan Respublikası Audit Standartlarına müvafiq keyfiyyətli və səriştəli audit aparmağı;
3.3.2. Audit aparılması gedişatında Sifarişçinin təqdim etdiyi sənədlərin qorunub saxlanmasını təmin etməyi;
3.3.3. İcraçı Azərbaycan Respublikasının qanunvericiliyində birbaşa nəzərdə tutulan hallar istisna edilməklə sənədlərin məzmununu şifahi və yazılı şəkildə üçüncü şəxsə açıqlamamağı
3.3.4. Sifarişçinin sorğusu üzrə İcraçı auditin aparılmasına aid qanunvericilik tələbləri haqda, həmçinin İcraçının irad və nəticələrinin əsaslandığı normativ aktlar haqda məlumatları təqdim etməyi;
3.3.5. Audit başa çatdıqdan sonra Sifarişçiyə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq tərtib olunmuş auditor rəyi və hesabatını təqdim etməyi.
3.4. *İcraçının ixtiyarı vardır:*
3.4.1. Auditin aparılmasının seçmə qaydasını və əhəmiyyətlilik prinsiplərini nəzərdə tutan forma və metodunu sərbəst müəyyənləşdirməyə;
3.4.2. Sifarişçinin maliyyə təsərrüfat fəaliyyəti, pul vəsaitlərinin, qiymətli kağızlarının, maddi-qiymətlilərin mövcudluğu barədə auditor sübutları toplamaq məqsədilə sənədləri yoxlamağa, zəruri auditor prosedurlarını yerinə yetirməyə, auditin keçirilməsi üçün zəruri olan məlumatların əldə edilməsi üçün Sifarişçinin əməkdaşlarından yazılı və şifahi izahatlar almağa;
3.4.3. Üçüncü şəxslərdən audit yoxlamasının aparılması üçün zəruri olan məlunatları almağa;
3.4.4. Auditor rəyinin formalaşdırılması üçün zəruri olan Sifarişçinin sənədlərinin surətini çıxarmağa

Maddə 4. <u>İşlərin təhvil verilmə qaydası</u>
4.1. Auditor hesabatı təhvil-qəbul aktı ilə birlikdə birbaşa və ya kuryer/rabitə vasitələri ilə Sifarişçinin səlahiyyətli nümayəndəsinə verilir.
4.2. İşlərin görülməsinin başa çatması tarixi bu müqavilənin 4.1-ci bəndində nəzərdə tutulduğu qaydada auditor rəyinin Sifarişçiyə təqdim edilməsi tarixi (təhvil-təslim aktı və ya kuryer vasitəsilə göndərildiyi tarix) hesab olunur.

Maddə 5. <u>İşlərin yerinə yetirilməsi müddəti</u>
5.1. Bu müqavilə bağlanan gün (şərti olaraq) tələb olunan sənədlərin siyahısı Sifarişçiyə elektron poçt və/və ya digər əlaqə vasitəsilə çatdırılır. Sifarişçi tərəfindən auditorun tələb etdiyi sənədlər tam təqdim ediləndən sonrakı 1 (bir) ay müddətində hesab edilir. Əgər auditor yoxlama zamanı əlavə sübutların toplanmasına özündən asılı olmayan səbəblərdən (sübutları təqdim edən üçüncü tərəflərin gec təqdim etməsi, kuryer və ya poçt firmasının təqsiri və sair) vaxt itirərsə və bu vaxt itkisi nəticəsində işlərin yerinə yetirilməsinin bir aydan artıq olmasına səbəb olarsa, işlərin yerinə yetirilməsi müddəti yubadılmış müddət qədər avtomatik artırılır.
5.2. Bu müqavilədə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi müddəti Sifarişçinin təqsiri üzündən yubadıldıqda, işlərin başa çatdırılması vaxtı yubadılmış müddət qədər avtomatik olaraq artırılır.

Maddə 6. <u>Müqavilə üzrə hesablaşmalar və ödənişlər</u>
6.1. Bu müqavilədə nəzərdə tutulmuş işlərin dəyəri **600 (altı yüz)** manat məbləğində müəyyən edilir. Sifarişçi bu müqavilədə göstərilmiş işlərin yerinə yetirilməsinə görə İcraçının əlavə xərcləri (Baş ofisin yerləşdiyi şəhərdən kənara ezamiyyət, ehtiyac yaranarsa, üçüncü şəxslərdən əldə ediləcək əlavə sübutların toplanmasına görə poçt və/və ya kuryer xərci, hər hansı bir sənədin tərcüməsi, ekspertiza və/və ya qiymətləndirmə) yaranarsa, həmin xərcləri özü ödəyir.
6.2. Bu müqavilədə nəzərdə tutulmuş işlərin dəyərinin ödənişi Sifarişçi tərəfindən İcraçının təqdim etdiyi e-qaimə və hesab-fakturaya əsasən İcraçının bank hesablarına köçürülməklə həyata keçirilir.
6.4. Müqavilə üzrə yerinə yetirilmiş işlərə görə yekun hesab-faktura auditor rəyinin və yerinə yetirilmiş islərin təhvil-qəbul aktı ilə birlikdə təqdim edilir.
6.5. Müqavilə üzrə ödəniş Bu müqavilənin 4.-cü maddəsi ilə müyən edilmiş <u>İşlərin təhvil verilmə qaydasına müvafiq tarixdə</u> Sifarişçi tərəfindən ödənilməlidir.

Maddə 7. <u>Məxfilik</u>
7.1. Tərəflər bağlanmış müqavilənin mövcudluğu, məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla tərəf müqabilinin rəsmi razılığı olmadan üçüncü tərəfə heç bir məlimat vermir.
7.2. Bu müqavilənin qüvvədə olduğu müddət ərzində və ondan sonrakı dövrdə Tərəflərin qarşılıqlı yazılı razılığı olmadan bu müqavilədəki öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü tərəflərə heç bir məlumat açıqlana bilməz.
7.3. Bu maddənin məqsədləri ücün "məlumat" məhdudiyyətsiz olaraq, aşağıdakıları əks etdirir:
✓ Bu müqavilənin şərtləri barədə məlumat, həmçinin onların yerinə yetirilməsinin forma və metodları;

✓ Bu müqavilədəki tərəflərdən birinin vəziyyəti və əmlakı barədə məlumatlar.

7.3. Məxfilik barədə yuxarıda qeyd olunanlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan hallarda və qaydada belə informasiyanın dövlət hakimiyyət orqanlarına verilməsinə aid edilmlr.

7.4. Bu müqavilə ilə tərəflər arasında razılaşdırılmış məxfilik öhdəliklərinə kütləvi informasiya vasitələrindən əldə edilmlş informasiya aid edilmir.

Maddə 8. Tərəflərin öhdəliklərinə görə məsuliyyəti

8.1. Bu müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya tam yerinə yetirilməməsinə görə Sifarişçi və İcraçı mövcud qanunvericilik və bu müqavilənin şərtlərinə görə əmlak məsuliyyəti daşıyırlar.

8.2. İcraçı auditi ancaq audit dövründə ona təqdim olunmuş sənədlər və digər məlumatlar əsasında aparır. Bu sənədlərin keyfiyyətinə və onlarda əks olunmuş məlumatların düzgünlüyünə bu sənədləri tərtib etmiş və imzalamış şəxslər məsuliyyət daşıyırlar.

8.3. Auditin planlaşdırılması və aparılması prosesində İcraçı audit prosedurlarını təyin etmək üçün Sifarişçinin daxili nəzarət strukturuna baxacaqdır ki, bu da Sifarişçinin daxili nəzarət strukturuna təminat vermək məqsədi deyil, onun maliyyə hesabatlarına təsiri barədə fikir bildirmək məqsədi güdür.

8.4. Tərəflərin hər hansı iddia və ya tələbləri üzrə məsuliyyəti müqavilənin şərtləri ilə nəzərdə tutulmuş, alınmış və ya alınacaq məbləğlər ilə məhdudlaşır.

Maddə 9. Məsuliyyətdən azad olma

9.1. Tərəflər, bu müqavilə bağlandıqdan sonra bu müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qədər yerinə yetirilməməsinə görə yalnız o halda məsuliyyət daşımırlar ki, bu yerinə yetirilməmə və ya tam yerinə yetirilməmə hər hansı fövqəladə hadisələrin nəticəsi kimi meydana çıxmış olsun və tərəflər bu hadisələrin gedişinə heç bir təsir etmək iqtidarında olmasınlar.

9.2. Fövqəladə hadisələr dedikdə elə hadisələr nəzərdə tutulur ki, tərəflər bu hadisələrə təsir göstərə bilmirlər və onların əmələ gəlməsinə məsuliyyət daşımırlar. Məsələn, zəlzələlər, daşqınlar, fırtınalar və başqa təbii fəlakətlər, yanğınlar, qəzalar, tətillər, müharibələr, hərbi əməliyyatlar, həmçinin dövlət, hakimiyyət orqanlarının qərar və sərəncamları.

9.3. Tərəflər bu cür halların əmələ gəlməsi barədə o biri tərəfə 3 iş günü müddətində yazılı surətdə xəbərdarlıq etməyə borcludur. Xəbərdarlıqda bu hadisələrin xarakteri və əgər mümkündürsə, müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi müddətinə təsiri şərh edilməlidir.

9.4. Tərəflər göstərilən hadisələrin başa çatması ilə o biri tərəfi dərhal yazılı surətdə xəbərdar etməlidir və öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan müddəti bildirməlidir.

9.5. Əgər fövqəladə hadisələrin əmələ gəlməsi barədə hər hansı tərəf o biri tərəfə xəbərdarlıq etmişdirsə, müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi fövqəladə hadisələrin davam etməsi müddəti qədər uzadılır.

9.6. Əgər fövqəladə hadisələr tərəflərin hər hansına öz öhdəliklərini yerinə yetirməsinə 3 ay müddətində əməl etməyə imkan vermirsə və ya bu hadisələr 3 aydan artıq davam edərsə, tərəflər qarşılıqlı öhdəlikləri yerinə yetirmək üçün danışıqlar apara bilərlər və ya müqavilənin dayandırılması barədə qərar qəbul edə bilərlər.

Maddə 10. Mübahisələrin həll olunması qaydası

10.1. Bu müqavilənin maddələrinin müddəalarının anlaşılması, fəaliyyəti və ya yerinə yetirilməsi üzrə tərəflər arasında bütün mübahisələr tərəflər arasında danışıqlar vasitəsi ilə həll olunur.

10.2. Tərəflər arasında meydana çıxmış mübahisələr digər tərəfdən bu mübahisənin həll olunması barədə təklif alınmasından iki ay müddətinə aradan qaldırılmazsa, mübahisələr mövcud qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının müvafiq məhkəməsində həll edilməlidir.

Maddə 11. Müqavilənin ləğv olunması şərtləri

11.1. Müqavilə aşağıdakı hallarda ləğv oluna bilər:

11.1.1. Bu müqavilənin 13-cü maddəsinin şərtlərinə uyğun olaraq, tərəflərin qarşılıqlı razılığı ilə yazılı surətdə.

11.1.2. Tərəflərdən birinin təsərrüfat fəaliyyətinin dayandırılması və ya işgüzar əməliyyatlarının dayandırılması təhlükəsi əmələ gəldikdə (ödəniş qabiliyyəti olmadıqda, müflisləşmə, ləğv olunma baş verdikdə).

11.2. Tərəflərdən hər biri bu müqaviləni o biri tərəf öz öhdəliklərini yazılı xəbərdarlıqdan sonra 15 gün müddətində yerinə yetirmək üçün heç bir tədbir görmədiyi halda, dayandırmaq hüququna malikdirlər.

11.3. Bu müqavilənin 11.1 və 11.2.-cü bəndlərinə müvafiq olaraq müqavilə ləğv olunduqda, faktiki görülmüş işlərin dəyəri İcraçı tərəfindən mütəxəssislərin auditə sərf etdikləri vaxta müvafiq olaraq tərtib olunmuş hesabat əlavə edilmiş hesaba əsasən ödənilməlidir.

Maddə 12. Digər şərtlər

12.1. İcraçı bu müqavilənin 1-cü maddəsində nəzərdə tutulmuş işləri yerinə yetirmək üçün mütəxəssisləri öz

istəyinə uyğun seçir.
12.2. İcraçının mütəxəssislərinin vaxtamuzd tariflərlə işi bu cür və ya buna oxşar müqavilənin gələcəkdə bağlanmasında nümunə və ya rəqabət materialı kimi istifadə oluna bilməz.

Maddə 13. Bildiriş

13.1. Bu müqavilədə nəzərdə tutulmuş bütün bildirişlər və məlumatlar yazılı şəkildə kuryer və ya elektron poçt vasitəsilə göndərilməlidir. Hər hansı Tərəfin digərinə göndərdiyi istənilən bildiriş o halda hüquqi qüvvəyə malikdir ki, o, tərəflərə müqavilədə göstərilmiş qaydada göndərilsin. Yalnız o halda bildiriş göndərilmlş və ünvanına çatmış hesab edilə bilər. Bildirişin göndərilməsi və ünvanına çatması vaxtı isə aşağıdakı qaydalarda müəyyn edilir:

- ✓ şəxsən təqdim etdikdə - alınma tarixində;
- ✓ sifarişli poçt xidməti ilə göndərildikdə - göndərilməyə qəbul olunma barədə qəbzdə göstərilən tarixdən 3 gün sonra;
- ✓ elektron poçtla – göndərildiyi tarixdən sonrakı iş günündə.

13.2. Bu müqavilənin məqsədləri üçün tərəflərin hüquqi ünvanları (bu maddənin qaydasına riayət etməklə onların dəyişməsi haqqında bildirlşlərin alınmasına qədər) aşağıdakılardır:

Sifarişçi:
"ARAN Kredit İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyət
Hüquqi ünvan: AZ1900, Saatlı rayonu, Saatlı şəhəri, 1 May küçəsi, ev 56;
Telefon: 050 685 48 64
E-mail: ibrahimovs049@gmail.com
İcraçı:
Bakı şəhəri, Yasamal rayoun, Ə.Ələkbərov küçəsi, ev 79, mənzil 48
Tel: +994 (55) 207 98 18
E-mail: auditoryusifova@gmail.com

Maddə 14. Yekun müddəalar

14.1. Bu müqaviləyə bütün əlavələr və düzəlişlər yalnız o halda qüvvədə sayılır ki, onlar yazılı şəkildə həyata keçirilmişlər və tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imza edilmişlər.
14.2. Bu müqavilə tərəflər arasında bütün razılaşmaları əhatə edir.Müqavilənin qüvvəyə minməsindən sonra bu müqavilənin bağlanmasına qədər istifadə edilmiş bütün şifahi və yazılı razılaşmalar öz qüvvəsini itirmiş hesab olunur.

Maddə 15. Müqavilənin qüvvəyə minməsi

15.1. Müqavilə tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imza edildiyi tarixdən qüvvəyə minir.
15.2. Müqavilə Bakı şəhərində, tərəflərin hər birinə bir nüsxə olmaqla, eyni qüvvəyə malik olan iki nüsxədən ibarət imzalanmışdır.

Maddə 16. Tərəflərin bank rekvizitləri

16.1. Sifarişçi:	***16.2. İcraçı:***
"ARAN Kredit İttifaqı" MMC *Hüquqi ünvan: AZ1900, Saatlı rayonu, Saatlı şəhəri, 1 May küçəsi, ev 56* *VÖEN: 6700282021* *Hesab: AZ30AIIB37090019445900245* *"Kapitalbank" ASC-nin Saatlı rayon filiali* *Kodu: 200598* *VÖEN:9900003611* *M/H: AZ37NABZ01350100000000000944* *S.W.I.F.T.: AIIBAZ2X* *İdarə Heyətinin Sədri:* *Cəlil S.Süleymanov*	***Yusifova Gülnarə İsfəndiyar qızı*** *Bakı ş, Yasamal r, Ə.Ələkbərov küç., ev 79, mənzil 48* *VÖEN: 1305242432* *AZ70KABA00000000000005171121* *"YapiKredi Bank Azerbaijan"* *Kodu: 509987* *VÖEN: 9900009021* *M/H: AZ51NABZ01350100000000012944* *S.W.İ.F.T.: KABAAZ22* *Sərbəst auditor* *Gülnarə İ.Yusifova*

Bakı – Azərbaycan Respublikası

31 dekabr 2025-ci il tarixdə bitən il üzrə

Müstəqil Auditor Rəyi və Maliyyə Hesabatları

MÜNDƏRİCAT

Səhifə

Rəhbərliyin Hesabatı	2 - 4
Maliyyə vəziyyəti haqqında Hesabat	5
Mənfəət və ya Zərər haqqında Hesabat	6
Kapitalda dəyişikliklər haqqında Hesabat	7
Pul vəsaitlərinin hərəkəti haqqında Hesabat	8
Maliyyə hesabatlarına dair Qeydlər	9 - 17

Bakı – Azərbaycan Respublikası

31 dekabr 2025-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat

"**Aran Kredit İttifaqı**" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") (VÖEN: 6700282021) 01 yanvar tarixindən 31 dekabr 2025-ci il tarixinədək maliyyə vəziyyətini, eləcə də həmin tarixlərdə bitən il üzrə məcmu gəlirlər haqqında, pul vəsaitlərinin hərəkəti və payçı kapitalında dəyişiklikləri düzgün əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS- nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 01 yanvar tarixindən 31 dekabr 2025-ci il tarixinədək maliyyə hesabatları 04 aprel 2025-ci il tarixdə rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

Rəhbərlik 31 dekabr 2025-ci il tarixdə bitən il üzrə Cəmiyyət (VÖEN: 6700282021) hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

Əsas Fəaliyyət:

Müəssisənin əsas fəaliyyəti: **Kreditin Verilməsi**

Biznes əməliyyatlarının icmalı və fəaliyyətin gələcək inkişaf perspektivləri

Müəssisənin gəliri 31 dekabr 2025-ci il tarixdə bitən il üzrə 242,351.00 AZN, xərcləri isə 240,947.00 AZN olmuşdur. Nəticədə Müəssisə 31 dekabr 2025-ci il tarixdə bitən ili 1,404.00 AZN ümumi mənfəətlə başa vurmuşdur. Cəmiyyətin rəhbəri gələcək ilin nəticələri üçün nikbindir və Müəssisənin fəaliyyətini təkmilləşdirməyi ümid edirlər.

	2025 (AZN)	2024 (AZN)
Ümumi Gəlir	242,351.00	253,956.00
Ümumi Xərc	(240,947.00)	(252,147.00)
Ümumi mənfəət/zərər	1,404.00	1,809.00
Mənfəətlik dərəcəsi %	0.58%	0.71%
Xalis mənfəət/zərər	1,004.00	1,189.00
Xalis mənfəət/zərər %	0.41%	0.47%

Müəssisə 2025-ci ili 1,404.00 AZN ümumi, 1,004.00 AZN xalis mənfəətlə başa vurmuşdur.

Risklərin idarə olunması və daxili nəzarət sistemi:

Cəmiyyət davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir. .

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Cəmiyyət idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

Fəaliyyətin fasiləsizliyi:

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmalıdır. Hesabatları hazırlayarkən menecment Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətini qiymətləndirilmişdir.

Kreditor borclarının ödənilməsi siyasəti:

Cəmiyyət təchizatçılarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi standart ödəniş sisteminin tətbiq edilməsidir.

Balans tarixindən sonrakı hadisələr:

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Cəmiyyətin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

Torpaq, tikili və avadanlıqlar:

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarında göstərilmişdir.

Təsisçi:

Nizamnamə kapitalının dəyəri 4,015.00 manat (Dörd min on beş manat 00 qəpik) məbləğində formalaşmış və təsdiq edilmişdir.

31 dekabr 2025 – ci il tarixdə bitən il üzrə Cəmiyyətin nizamnamə kapitalında təsisçilərin payı faiz nisbəti ilə aşağıdakı kimidir.

Təsisçilərin adı	Payın miqdarı	Bir pay, manat	Nizamnamədə payın məbləği, manat	Təsisçinin ümumi paydaxüsusi çəkisi, %
Süleymanova Fəranə Hüseyn qızı	1	365.00	365.00	9.09
Süleymanova Xədicə Şahin qızı	1	365.00	365.00	9.09
Heydərova Mətanət Cəlil qızı	1	365.00	365.00	9.09
Süleymanova Könül Ağalar qızı	1	365.00	365.00	9.09
Süleymanova Şəfa Şahin qızı	1	365.00	365.00	9.09
Süleymanov Şahin Salman oğlu	1	365.00	365.00	9.09
Süleymanov Salman Cəlil oğlu	1	365.00	365.00	9.09
Süleymanov Camal Süleyman oğlu	1	365.00	365.00	9.09
Süleymanov Cəlil Salman oğlu	1	365.00	365.00	9.09
Heydərov Elmir Rəşid oğlu	1	365.00	365.00	9.09
Məmmədov Əkbər Əhliman oğlu	1	365.00	365.00	9.09
YEKUN	**11**	**4,015.00**	**4,015.00**	**100%**

Rəhbərliyin məsuliyyəti

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Cəmiyyətin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə hesabatlarını hazırlamağı tələb edir.

Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları dövlət qanunlarına uyğun olaraq hesablanmışdır. Rəhbərlik təsdiq edir ki, Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlaya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasına təmin edən uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna əhəmiyyətli dərəcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki,maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Cəmiyyətin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

Rəhbər

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyətləri «ARAN KREDİT İTTİFAQI» Limited Liability Company Azerbaijan Republic

SÜLEYMANOV CƏLİL SALMAN OĞLU

Maliyyə vəziyyəti haqqında hesabat, 31 dekabr 2025-ci il tarixinə

	Qeyd №	31.12.2025	31.12.2024
AKTİVLƏR			
Uzunmüddətli aktivlər			
Əsas vəsaitlər	B1	482.00	482.00
Uzunmüddətli kreditlər	B5	72,285.00	
Uzunmüddətli kr. üzrə hesablanmış alınacaq faizlər			
Lizinq əməliyyatları			
Lizinq əməliyyatları üzrə hesablanmış alınacaq faizlər			
Xüsusi ehtiyat fondu	B7	52,527.00	54,663.00
Uzunmüddətli aktivlərin cəmi		**20,240.00**	**(54,181.00)**
Cari aktivlər			
Nəğd pul Bank hesabları	B2	9,949.00	8,817.00
Debitor Borclar			
Qısamüddətli kreditlər	B3	246,762.00	382,869.00
Qısamüddətli kr. üzrə hesablanmış alınacaq faizlər	B4	75,644.00	78,668.00
Vergi aktivləri			
Digər cari aktivlər	B6	1,405.00	1,405.00
Cari aktivlərin cəmi		**333,760.00**	**471,759.00**
Aktivlərin cəmi		**354,000.00**	**417,578.00**
Cari öhdəliklər			
Kreditor borclar			
Vergi öhdəlikləri			
Digər cari öhdəliklər			
Cari öhdəliklərin cəmi		**0.00**	**0.00**
Uzunmüddətli öhdəliklər			
Mərkəzi idarəetmə orqanlarının vəsaitləri	B12	72,591.00	86,298.00
Maliyyə sektorundan alınmış kreditlər			
İstiqrazlar			
Uzunmüddətli öhdəliklərin cəmi		**72,591.00**	**86,298.00**
Öhdəliklərin cəmi		**72,591.00**	**86,298.00**
KAPİTAL			
Nizamnamə kapitalı	B8	4,015.00	4,015.00
Keçmiş illərin mənfəəti/zərəri	B9	1,189.00	1,465.00
Bölüşdürülməmiş mənfəət/zərər	B10	1,004.00	1,189.00
Kapital ehtiyatları	B11	275,201.00	324,611.00
Kapitalın cəmi		**281,409.00**	**331,280.00**
Cəmi kapital və öhdəliklər		**354,000.00**	**417,578.00**

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

Direktor:

04.04.2025-ci il

Baş mühasib:

Mənfəət və ya zərər haqqında hesabat, 31 dekabr 2025-ci il tarixinə

	Qeyd №	31.12.2025	31.12.2024
Əməliyyat fəaliyyəti			
Əməliyyat gəlirləri		194,925.00	190,000.00
Əməliyyat xərcləri	P1	(1,324.00)	(1,342.00)
Gross mənfət		**193,601.00**	**188,658.00**
Digər əməliyyat gəlirləri		48,750.00	63,956.00
Əmək haqqı və əlavələr	P2	(18,700.00)	(12,650.00)
Sosial təminat xərcləri	P3	(3,550.00)	(2,519.00)
Administrativ və digər qaimə xərcləri	P3	(5,836.00)	(4,800.00)
Digər əməliyyat xərcləri	P4	(524.00)	(1,150.00)
Əməliyyat mənfəəti		**213,741.00**	**231,495.00**
İnvestisiya fəaliyyəti			
Birgə müəssisə və Asossasiyalardan gəlirlər			
Depozit hesablarının faiz gəlirləri			
Maliyyə fəaliyyətindən əvvəl mənfəət		**213,741.00**	**231,495.00**
Maliyyə fəaliyyəti			
Bank kreditləri üzrə faiz xərcləri			
Ehtiyatlar (Provision) və digər maliyyə fəaliyyəti üzrə faiz xərcləri	P5	(212,337.00)	(229,686.00)
Vergidən əvvəlki mənfəət		**1,404.00**	**1,809.00**
Vergilər			
Mənfəətdən ödənilən vergilər	P6	(400.00)	(620.00)
Bölüşdürülməmiş mənfəət/zərər		**1,004.00**	**1,189.00**

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

Direktor:

04.04.2025-ci il

Baş mühasib:

Kapitalda dəyişikliklər haqqında hesabat, 31 dekabr 2025-ci il tarixdə bitmiş il üzrə

Azərbaycan Manatı ilə	Nizamnamə Kapitalı	Kapital ehtiyatları	Bölüşdürülməmiş mənfəət/ ödənilməmiş zərər	Cəmi kapital
31.12.2023-cü il tarixinə kapitalın qalığı	**4,015.00**	**2,513.00**	**350,147.00**	**360,760.00**
Kapital qoyuluşu/Ehtiyatlarda azalma		(31289.00)		**(31289.00)**
Keçmiş illərin maliyyə nəticəsi				-
Hesabat dövrünün maliyyə nəticəsi			1809.00	**1809.00**
31.12.2024-cü il tarixinə kapitalın qalığı	**4,015.00**	**-28,776.00**	**351,956.00**	**331,280.00**
Kapital qoyuluşu/Ehtiyatlarda azalma		(50875.00)		**(50875.00)**
Keçmiş illərin maliyyə nəticəsi				-
Hesabat dövrünün maliyyə nəticəsi			1,004.00	**1,004.00**
31.12.2025-cü il tarixinə kapitalın qalığı	**4,015.00**	**(79651.00)**	**352,960.00**	**281,409.00**

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

Direktor:

04.04.2025-ci il

Baş mühasib:

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat - Dolayı metodla 31 dekabr 2025-ci il tarixə

	30.12.2025	30.12.2024
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin axını		
Vergidən əvvəlki mənfəət/ (zərər)	1,404.00	1,189.00
Qeyri-nağd düzəlişlər:		
Faiz gətirən aktivlərə kredit zərərləri üzrə ehtiyat	52,527.00	
Köhnəlmə və amortizasiya xərcləri		
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətində istifadə olunan	**53,931.00**	**1,189.00**
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər		
Müştərilərə verilmiş qısamüddətli kreditlər və avanslarda	(66,846.00)	156,348.00
Debitor Borclarda		
Pul vəsaitləri və onların ekvivalentlərində		
Digər cari aktivlərdə	1,132.00	
Uzunmüddətli öhdəliklərdə	13,707.00	(158,668.00)
Digər cari öhdəliklərdə		
Digər öhdəliklərində	(2,116.00)	
Əməliyyat fəaliyyətinə mənfəət vergisindən əvvəl yönəlmiş xalis pul vəsaitləri	**(192.00)**	**(1,131.00)**
Alınmış faiz gəliri		
Ödənilmiş faiz xərci	1,324.00	
Əməliyyat ffəaliyyətinə yönəlmiş pul vəsaitləri	**1,132.00**	**(1,131.00)**
İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin axını		
Qeyri-maddi aktivlərin alınması		
Əsas vəsaitlərin təqdim edilməsindən gəlir		
Əmlak və avadanlıqların alınması		
İnvestisiya fəaliyyətinə yönəlmiş pul vəsaitləri	**0.00**	**0.00**
Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin axını		
Nizamnamə kapitalında artım		
İmtiyazlı səhmlər		
Buraxılmış borc qiymətli kağızları		
Müddətli borc öhdəlikləri		
Səhmdarlardan alınmış borc vəsaitləri		
Maliyyəşdirmə fəaliyyətinə yönəlmiş pul vəsaitləri	**0.00**	**0.00**
Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım	**1,132.00**	**(1,131.00)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	8,817.00	9,948.00
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	**9,949.00**	**8,817.00**

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

Direktor **Baş mühasib:**

04.04.2025-ci il

Maliyyə hesabatlarına dair qeydlər, 31 dekabr 2025-ci il tarixdə bitən il üzrə

1. Hüquqi vəziyyət və biznes fəaliyyəti

1. 1 "Cəmiyyət" 22 aprel 2008-ci il tarixdə İqtisadiyyat yanında Dövlət Vergi Xidmətinin 5 saylı Ərazi Vergilər İdarəsində 6700282021 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

1. 2. Cəmiyyətin əsas fəaliyyəti – Kreditin verilməsi

1. 3."Cəmiyyət"in hüquqi ünvanı aşağıdakı kimidir:

AZ4900, Saatlı Rayonu, Saatlı şəhəri, 1 may ev 56

2. Səhmdar kapitalı

Nizamnamə kapitalının dəyəri 4,015.00 manat (Dörd min on beş manat 00 qəpik) məbləğində formalaşmış və təsdiq edilmişdir.

3.Mühüm uçot siyasətlərinin xülasəsi

Hazırlanmanın əsasları:

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır; maliyyə hesabatları yeni Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

4.Uyğunluğun təsdiqi

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq hazırlanmışdır.

a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabat tarixinə hesabatda əks olunmuş gəlirlərə, xərclərə, aktivlər və öhdəliklərə və şərti öhdəliklərin açıqlanmasına təsir edən qiymətləndirmələr, ehtimallar və fərziyyələri formalaşdırmağı tələb edir. Lakin bu qiymətləndirmələr və ehtimalların qeyri-dəqiqliyi gələcəkdə aktiv və ya öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlər tələb edə biləcək nəticələrə gətirib çıxara bilər.

Qiymətləndirmələr

Cəmiyyətin uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesablarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətlədirmələri həyata keçirmişdir.

Əməliyyat gəliri

Rəhbərlik belə hesab edir ki, gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəlik qəbul edilərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

Ehtimal və fərziyyələr

Növbəti maliyyə ili çərçivəsində, balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişikliyə gətirib çıxara biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

Şübhəli borclar üzrə ehtiyatlar

Şübhəli borclar üzrə ehtiyatlar debitor borclarını onların geri qaytarılmaması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməməsindən) əmin olmaq üçün bir sıra amillərə əsaslanaraq müəyyən edilir. Ümüdsüz borclar üzrə ehtiyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borclarının ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin maliyyə vəziyyətinin

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

kredit cəhətdən qiymətləndirilməsi daxildir. Həmçinin, şirkət müştərinin özünün öhdəliklərini ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşahidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyatlar yaradılır.

b) Ehtiyatlar

Ehtiyatlar ilkin dəyəri və mümkün xalis satış dəyərindən daha kiçik olan dəyərlə FİFO metodundan istifadə etməklə uçota alınır. Ehtiyatların ilkin dəyərinə onların alınması, emal xərcləri və ehtiyatların mövcud yerə və vəziyyətə gətirilməsi üçün çəkilən digər xərclər daxildir. Xalis satış dəyəri nəzərdə tutulan satış qiymətindən işin tamamlanmasına ehtimal edilən xərcləri və satışı həyata keçirmək üçün zəruri xərcləri çıxmaqla müəyyən olunur.

c) Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətdəndüşmə üzrə zərərlər çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti, rüsumlar, tariflər və onların müəssisə rəhbərliyinin istədiyi vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddətləri üzrə azalan qalıq dəyəri metodu ilə amortizasiya olunur:

Binalar	7%
Maşın və avadanlıqlar	20%
Ofis avandanlıqları	20%
Nəqliyyat vasitələri	25%

d) Qeyri-maddi aktivlər

İlkin dəyər modeli

Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətdən düşmə üzrə zərər çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri maddi aktivlər istisna olmaqla bütün digər qeyri-maddi aktivlərin amortizasiyası faydalı istifadə müddətləri üzrə düz xətt metodundan istifadə etməklə Mənfəət və Zərər haqqında Hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır.

e)Aktivlərin qiymətdən düşməsi

Torpaq, tikili və avadanlıqların əgər hadisə və şəraitdəki dəyişikliklər göstərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir, o zaman qiymətdən düşməsinin, olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa, o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub-olmamasını müəyyən etmək üçün qiymətləndirilir. Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur, Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

f) Vergi qoyma

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergi tutulan mənfəət "Mənfəət və Zərər haqqında" hesabatda göstərilən uçot mənfəətindən fərqlənir, çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxarılacaq gəlir və ya xərc maddələrini, həmçinin heç vaxt

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergi tutulan mənfəətin hesablanması üçün istifadə edilən vergi bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergi tutulan mənfəətin hesablanması üçün istifadə edilmişdir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergi tutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxarılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyyəsində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergi tutulan mənfəətin və uçot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət etdiyindən maliyyə hesabatlarında müvəqqəti fərqlər yaranmır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, Cəmiyyətin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

g) Maliyyə icarəsi

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə, həm də keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır.

İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda, maliyyə icarəsi kimi təsnifləşdirilmişdir.

- ✔ İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir;
- ✔ İcarəçinin, aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür;
- ✔ İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir.
- ✔ İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir;
- ✔ İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki, o xüsusi modifikasiya edilmədən, yalnız icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Cəmiyyət icarədar kimi maliyyə icarəsini balansa müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onları yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amortizasiyası siyasəti ilə eynidir.

Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda ək olunur.

Maliyyə hesabatlarına dair qeydlər

h) Gəlirin tanınması

Məhsulların satışından gəlir aşağıdakı şərtlər yerinə yetirilərsə tanına bilər:

I. Müəssisə məhsulların mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risk və mükafatları alıcıya ötürmüşdür;

II. Müəssisə mülkiyyət hüququ ilə bağlı idarəetmədə artıq iştirak etmir və satılmış mallara faktiki nəzarəti saxlamır;

III. Gəlir məbləği düzgün qiymətləndirilə bilinir;

IV. Müəssisəyə əməliyyatla bağlı iqtisadi səmərənin daxil olacağı ehtimal olunur;

V. Əməliyyatla bağlı çəkilmiş və ya çəkilməli xərcləri düzgün qiymətləndirmək mümkündür.

i) Maliyyə xərcləri

Maliyyə xərcləri mənfəət və zərər haqqında hesabatda onların yarandığı dövr üzrə tanınır.

j) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına cari və cari əsas əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

k) Qiymətləndirilmiş ehtiyatlar

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda öhdəliyin yerin yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

l) Xarici valyutalar

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.

Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında hesabatda əks olunur.

Cəmiyyət tərəfindən maliyyə hesabatlarının hazırlanması üçün hesabat dövrünün sonunda istifadə edilmiş məzənnələr aşağıdakı kimi olmuşdur.

1 USD = 1,7000 AZN
1 EUR = 1.8766 AZN
1 RUB = 0.0188 AZN

Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

m) Maliyyə alətləri

Maliyyə aktivləri və ya öhdəlikləri mühasibat balansında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanıyır.

İlkin tanınmadan sonra maliyyə aktivləri (ı) birbaşa mənfəət və zərərdə ədalətli dəyərlə əks olunan; (ıı) müddəti başa çatmış investisiyalar; (ııı) Kreditlər debitorlar; və (ıv) satış üçün sərəncamda olan maliyyə aktivləri kimi təsnifləşdirilir.

Müddəti başa çatmış investisiyalar, kreditlər və debitorlarda olduğu kimi qalıq dəyəri ilə əks olunur, effektiv faiz dərəcəsi ilə hesablanmaqla yaranan gəlir mənfəət və zərər haqqında hesabatda tanınır.

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

Balans tarixində maliyyə aktivinin və maliyyə aktivləri qrupunun qiymətdən düşməsini müəyyən etmək üçün onlar qiymətləndirilir.

Əgər aktivlər amortizasiya edilmiş dəyər ilə uçota alınıbsa, qiymətdəndüşmə, aktivin ilkin dəyəri və maliyyə aktivinin ilkin tanınmada tətbiq edilən həmin effektiv faiz dərəcəsi ilə hesablanmış nəzərdə tutulan gələcək nağd pul hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərq kimi ölçülür. Lakin, maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək mümkün deyilsə, və onlar ilkin dəyəri ilə uçota alınıbsa, qiymətdən düşmə zərəri maliyyə aktivini ilkin dəyəri və bu cür maliyyə aktivi üçün cari bazar mənfəət normasında hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin diskontlaşdırılmış dəyəri arasında fərq kimi müəyyən edilir.

Satış üçün mövcud olan maliyyə aktivlərin ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlir və xərclərin kapitalda tanınması halları istisna olmaqla gəlir və xərclər mənfəət və zərər haqqında hesabatda tanınır. Qeyd edək ki,silinmə zamanı kapitalda tanınmış gəlir və xərclər bölüşdürülməmiş mənfəətə köçürülür. Maliyyə öhdəlikləri kimi xarakterizə olunan kreditor borcları ilkin olaraq ədalətli dəyəri ilə, daha sonra isə qalıq dəyəri ilə əks olunurlar.

n) Nağd pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa, bank hesablarındakı pullar və hər hansı yetişmə dövrü üç ay və ondan daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan depozit hesabları aid edilir.

5. Torpaq, tikili və avadanlıqlar, Qeyri-maddi aktivlər

Cəmiyyətin balansında mövcud olan hər hansı Torpaq, tikili və avadanlıqlar, Qeyri-maddi aktiv mövcud olmadığından amortizasiya xərci və Torpaq, tikili və avadanlıqlar, Qeyri-maddi aktivlərlə bağlı hər hansı hesabat da təqdim olunmamışdır.

6. Maliyyə hesabatlarına dair qeydlər, 31 dekabr 2025-ci il tarixdə bitən il üzrə

	Qeyd №	30.12.2025	30.12.2024
Maliyyə aktivləri		**405,122.00**	**470,354.00**
Kassa - milli valyutada	B2	9,949.00	8,817.00
Fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər - milli valyutada	B3	183,745.00	229,750.00
Fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər üzrə hesablanmış alınacaq faizlər - milli valyutada	B4	75,644.00	78,668.00
Fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər üzrə vaxtı keçmiş əsas borclar - milli valyutada	B3	63,017.00	67,127.00
Fiziki şəxslərə verilmiş uzunmüddətli kreditlər - milli valyutada	B5	72,285.00	85,992.00

		30.12.2025	30.12.2024
Digər debitor borcları aktivlər		**(51,122.00)**	**(53,258.00)**
Dövlət büdcəsi ilə hesablaşmalar - milli valyutada			
Gələcək dövrün xərcləri - milli valyutada			
Digər aktivlər üzrə ehtiyatlar - milli valyutada	B6	(52,527.00)	(54,663.00)
Kompütür avadanlıqlar – milli valyutada	B1	482,00	
Digər aktivlər	B7	1,405.00	1,405.00

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

		30.12.2025	30.12.2024
Digər Aktivlər		0.00	**0.00**
Cari mənfəət vergisi üzrə hesablaşmalar - milli valyutada			
Təxirə salınmış mənfəət vergisi aktivi - milli valyutada			

		30.12.2025	30.12.2024
Kreditor və digər borclar		72,591.00	**86,298.00**
AMB-dən alınmış uzunmüddətli kreditlər - milli valyutada			
Digər təşkilatlardan alınmış uzunmüddətli kreditlər - milli valyutada	B12	72,285.00	85,992.00
Digər təşkilatlardan alınmış uzunmüddətli kreditlər üzrə hesablanmış ödəniləcək faizlər - milli valyutada	B12	306.00	306.00

		30.12.2025	30.12.2024
Kapital		281,409.00	**331,280.00**
Kredit təşkilatlarının nizamnamə kapitalı	B8	4,015.00	4,015.00
Digər kapital ehtiyatları	B11	275,201.00	324,611.00
Keçmiş illərin mənfəəti/zərəri	B9	1,189.00	1,465.00
Cari ilinin təsdiq olunmamış mənfəəti/zərəri	B10	1,004.00	1,189.00

		30.12.2025	30.12.2024
Əmək haqqı və və sosial təminat xərcləri		22,250.00	**15,169.00**
Əmək haqqı və mükafatlar	P2	18,700.00	12,650.00
Sosial sığorta üzrə xərclər		3,550.00	2,519.00
DSMF (İşəgötürən)	P3	2,045.20	1,451.23
İcbari Tibbi Sığorta (İşəgötürən)	P3	1,347.80	956.37
İşsizlik sığortası (İşəgötürən)	P3	157.00	111.40

		30.12.2025	30.12.2024
Administrativ və digər qaimə xərcləri		220,421.00	**237,389.20**
İcarə xərcləri	P3	4,800.00	4,800.00
Qaz xərcləri	P3	62.00	10.00
Enerji xərcləri	P3	155.00	285.00
Bank xidməti xərcləri	P3	134.00	
Su və kanalizasiya xərcləri	P3	40.00	20.00
Rabitə xərcləri	P3	645.00	522.00
Faiz xərcləri	P1	1,324.00	985.00
Ehtiyat fondunun silinməsi	P5	212,337.00	229,686.00
Digər xərclər	P4	524.00	1,073.00
Mənfəətdən ödənilən vergilər	P6	400.00	8.20

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

7.Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə alətlərinin ədələtli dəyəri aşağıda göstarilir:

	31.12.2025		31.12.2024	
Maliyyə aktivləri	**Balans dəyəri**	**Ədalətli dəyər**	**Balans dəyəri**	**Ədalətli dəyər**
Pul vəsaitləri və onların ekvivalentləri	9,949.00	9,949.00	8,817.00	8,817.00
Müştərilərə verilmiş kredit və avanslar	394,691.00	394,691.00	382,869.00	382,869.00
Banklarda yerləşdirilmiş depozitlər				
Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə aktivləri	**404,640.00**	**404,640.00**	**391,686.00**	**391,686.00**

	31.12.2025		31.12.2024	
Maliyyə öhdəlikləri	**Balans dəyəri**	**Ədalətli dəyər**	**Balans dəyəri**	**Ədalətli dəyər**
Bank və ya kredit təşkilatlarına ödəniləcək vəsaitlər	72,591.00	72,591.00	85,992.00	85,992.00
Digər kapital və öhdəliklər	275,201.00	275,201.00	324,611.00	324,611.00
Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə öhdəlikləri	**347,792.00**	**347,792.00**	**410,603.00**	**410,603.00**

Likvid va ya qısa müddətli (üç aydan az) maliyyə aktivləri va maliyyə öhdəliklərinin balans dəyərinin onların ədalətli dəyərilə eyni olduğu güman edilir. Müştərilərə verilmiş kreditlər istisna olmaqla Cəmiyyətin maliyyə aktivləri və maliyyə öhdəlikləri likvid hesab olunur va ya hesabat tarixindən etibarən üç ay ərzində müddətinin tamamlanması gözlənilir.

Müştərilərə verilmiş kreditlərin ədalətli dəyəri ilk analoji maliyyə aktivləri üçün cari bazarda təklif olunan va tanınan faiz dərəcələri müqayisə olunaraq təxmin edilir. 31 dekabr tarixina mövcud kreditlərin əksər hissəsi həmin tarixdə bitən dövrün 12 ayı ərzində va bazar faiz dərəcələrilə verilmişdir, 2023-ci ildə verilən kreditlərin müqavilə üzrə faiz daracalari isa 31 dekabr 2022-ci il tarixinə olan bazar faiz dərəcələrinə yaxın qiymətləndirilir. Belə ki, onların balans dəyəri ədalətli dəyərinə bərabər hesab edilir.

8. Hesabat tarixindən sonra baş vermiş hadisələr

31 dekabr 2025-ci il tarixinə borc qalıqları aşağıdakı kimi olmuşdur.

Vergilər üzrə. 31 dekabr 2025-ci il tarixinə cəmiyyətin vergilər üzrə avans ödənişi 31,24 manat olub.

Sosial sığorta ayırmaları üzrə. 31dekabr 2025-ci il tarixinə cəmiyyətin sosial sığorta üzrə avans ödənişi 0,55 manat olub.

Əmək haqqı üzrə. 31 dekabr 2025-ci il tarixinə cəmiyyətin əmək haqqı üzrə işçi heyətinə kreditor borcu 0.00 manat olub.

Vergilər üzrə. 31 dekabr 2025-ci il tarixinə cəmiyyətin vergilər üzrə öhdəliyi 0.00 manat olub.

9. Mənfəət vergisi

Mənfəət vergisi hazırki maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uygun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakın, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır.Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

	31.12.2025	31.12.2024
Cari mənfəət vergisi xərci	400.00	620.00
Təxirə salınmış vergi üzrə	-	-
İl üzrə mənfəət vergisi xərci	**400.00**	**620.00**

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2025-ci il- 20%) qeydə alınır.

10.Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur kı, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə - təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

11. Risklərin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski bazar riski coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin

Maliyyə hesabatlarına dair qeydlər
31 dekabr 2025-ci il tarixində başa çatmış iz üzrə (Davamı)
(Azərbaycan manatı ilə)

azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Cəmiyyətin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazada daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

Faiz dərəcəsi riski

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

12.Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

- **Yeni və yenidən işlənmiş standartların tətbiqinin təsiri.**

Yeni və ya yenidən işlənmiş standartlar və onlara dair şərhlərin tətbiqinin 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətinə və həmin tarixdə tamamlanan il üçün əməliyyat nəticələrinə təsiri əhəmiyyətli dərəcədə olmamışdır.

13.Hesabat tarixinidən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisə baş verməmişdir.

MÜSTƏQİL AUDİTORUN HESABATI
"ARAN KREDİT İTTİFAQI" MMC-nin rəhbərliyinə
Müsbət rəy

Mən **"ARAN KREDİT İTTİFAQI" MMC**-nin (Bundan sonra - "Cəmiyyət") 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir .

Müsbət rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o, BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdirirəm.

Sərbəst auditor
Yusifova Gülnarə İsfəndiyar qızı

Bakı, Azərbaycan Respublikası
08 aprel 2026-cı il
Lisenziya: SA/376, 05.08.2022